*Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının 12 fevral 2021-ci il tarixli, SQ-08/2021-4 saylı qərarı ilə təsdiq edilmişdir.*

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin keçirilməsi ilə bağlı rəsmi sənədlərin saxlanılması qaydaları haqqında**

# T Ə L İ M A T

Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilərin (bundan sonra - seçkilər) keçirilməsi ilə bağlı rəsmi sənədlərin saxlanılması və ləğv edilməsi qaydaları "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun (bundan sonra – Qanun) 97-ci maddəsi və bu Təlimatla tənzimlənir.

## 1. Rəsmi seçki sənədlərinin saxlanılma qaydası

1.1. Naxçıvan Muxtar Respublikası MərkəziSeçki Komissiyasının (bundan sonra – Mərkəzi Seçki Komissiyası) səsvermənin nəticələri haqqında yekun protokolunun 2-ci nüsxəsi və ona əlavə edilən sənədlər, dairə və məntəqə seçki komissiyalarının (bundan sonra – dairə və məntəqə seçki komissiyaları) səsvermənin nəticələri barədə protokollarının 1-ci nüsxələri və onlara əlavə edilən sənədlər, seçki komissiyalarının maliyyə hesabatları, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının yekun maliyyə sənədləri Qanunun 97.2-ci maddəsinə uyğun olaraq növbəti seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərci günündən başlayaraq azı 1 il müddətində Mərkəzi Seçki Komissiyasında saxlanılır.

1.2. Dairə seçki komissiyanın protokolunun 2-ci nüsxəsi və ona əlavə edilən sənədlər Qanunun 90.5-ci maddəsinə uyğun olaraq komissiyanın fəaliyyətinin sonuna kimi dairə seçki komissiyasında saxlanılır.

1.3. Məntəqə seçki komissiyasının səsvermənin nəticələri haqqında yekun protokolunun 2-ci nüsxəsi və ona əlavə edilən sənədlər Qanunun 89.9-cu maddəsinə uyğun olaraq məntəqə seçki komissiyasının fəaliyyətinin sonuna kimi komissiyanın katibində saxlanılır.

1.4. Seçki bülletenləri və səsvermə vəsiqələri məntəqə seçki komissiyasının fəaliyyət müddəti başa çatan kimi dairə seçki komissiyasına, dairə seçki komissiyasının fəaliyyət müddəti başa çatan kimi isə Mərkəzi Seçki Komissiyasına təhvil verilir və Mərkəzi Seçki Komissiyasında ən azı 6 ay müddətində saxlanılır.

1.5. Seçici siyahıları 5 il müddətində Mərkəzi Seçki Komissiyasında saxlanılır.

**2. Seçkilərin keçirilməsi ilə bağlı rəsmi sənədlərin ləğv edilməsi qaydası**

2.1. Məntəqə və dairə seçki komissiyalarının səsvermənin nəticələri barədə protokollarının 1-ci nüsxələri və onlara əlavə edilən sənədlər, seçki komissiyalarının maliyyə hesabatları, qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının yekun maliyyə sənədləri Qanunun 97.2-ci maddəsinə uyğun olaraq növbəti seçkilərin təyin edilməsi haqqında sərəncamın rəsmi dərci günündən başlayaraq, azı 1 il müddətində Mərkəzi Seçki Komissiyasında saxlanıldıqdan sonra həmin sənədlər yandırılaraq ləğv edilir.

2.2. Məntəqə və dairə seçki komissiyaları protokollarının 2-ci nüsxələri və onlara əlavə edilən sənədlər komissiyaların fəaliyyəti başa çatdıqdan sonra yandırılaraq ləğv edilir.

2.3. Məntəqə seçki komissiyasının protokolunun 3-cü nüsxəsi 5 gün məlumat lövhəsində asılaraq saxlanıldıqdan sonra yandırılaraq ləğv edilir.

2.4. Dairə seçki komissiyasının protokolunun 3-cü nüsxəsi və müvafiq məntəqə seçki komissiyalarının protokollarının surətləri məlumat lövhəsində 10 gün saxlanıldıqdan sonra yandırılaraq ləğv edilir.

2.5. Mərkəzi Seçki Komissiyasının protokolunun 3-cü nüsxəsi və dairə seçki komissiyası protokollarının surətləri məlumat lövhəsində 15 gün saxlanıldıqdan sonra yandırılaraq ləğv edilir.

2.6. Seçki bülletenləri və səsvermə vəsiqələri seçkilərin yekunlarının rəsmi dərci günündən başlayaraq 6 ay keçdikdən sonra yandırılaraq ləğv edilir.

2.7. Seçici siyahıları 5 il müddətində Mərkəzi Seçki Komissiyasında saxlanıldıqdan sonra yandırılaraq ləğv edilir.

2.8. Məntəqə və dairə seçki komissiyalarında ləğv edilməsi nəzərdə tutulan sənədlərin ləğvi həmin seçki komissiyalarının sədrləri tərəfindən müvafiq komissiyaların qərarları ilə, Mərkəzi Seçki Komissiyasında ləğv edilməsi nəzərdə tutulan sənədlərin ləğvi isə Mərkəzi Seçki Komissiyasının Katibliyi tərəfindən həyata keçirilir.